AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT NAZİRLİYİ

WORLD
URBAN
FORUM
THIRTEENTH SESSION

# *Mədəniyyət bələdçisi*

MUZEYLƏR · İNCƏSƏNƏT · TƏDBİRLƏR



# *Azərbaycana*
# XOŞ GƏLMİŞSİNİZ!

Bu mədəniyyət bələdçisi sizi Bakının canlı və dinamik mədəni həyatı ilə tanış olmağa dəvət edir. Burada şəhərin muzeyləri, teatrları, tarixi və mədəni abidələri, həmçinin şəhərdə keçirilən müxtəlif maraqlı tədbirlər haqqında ətraflı məlumat tapa bilərsiniz.

Bələdçini onlayn oxumağa davam etmək üçün **QR kodu** skan edə bilərsiniz.

# HEYDƏR ƏLİYEV MƏRKƏZİ

Heydər Əliyev Mərkəzi Bakının ən möhtəşəm və müasir memarlıq abidələrindən biridir. Mərkəz **Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin** xatirəsinə həsr olunmuşdur və ölkənin mədəni həyatında mühüm yer tutur.

Mərkəzin binası məşhur memar **Zaha Hadidin** layihəsi əsasında inşa edilmişdir. Onun dalğavari və axıcı forması müasir memarlığın ən diqqətçəkən nümunələrindən biri hesab olunur. Binanın qeyri-adi dizaynı kəskin bucaqların olmaması və hamar xətlərin harmoniyası ilə seçilir. Bu xüsusiyyətlər tikiliyə həm estetik gözəllik, həm də özünəməxsus memarlıq üslubu verir.

Mərkəzin daxilində sərgi zalları, konfrans otaqları, muzey bölməsi və müxtəlif mədəni tədbirlər üçün geniş sahələr mövcuddur. Ziyarətçilər burada Azərbaycanın zəngin mədəni irsi ilə tanış olmaqla yanaşı, müasir incəsənət nümunələrini də görə bilirlər.

Bu gün Heydər Əliyev Mərkəzi Bakının ən məşhur turizm məkanlarından biri hesab olunur. Möhtəşəm memarlığı, geniş sərgi imkanları və zəngin mədəni proqramları ilə bu mərkəz paytaxtın müasir simasını əks etdirən ən vacib mədəniyyət ocaqlarından biridir.

**Bakı şəhəri, Heydər Əliyev prospekti, 1**





# HEYDƏR ƏLİYEV SARAYI

Heydər Əliyev Sarayı Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adını daşıyır və ölkənin ictimai-siyasi həyatında mühüm yer tutur. Saray 1972-ci ildə istifadəyə verilmişdir. Paytaxtın ən tanınmış memarlıq abidələrindən biri olan bu məkan ən nüfuzlu dövlət tədbirlərinin keçirildiyi xüsusi bir mərkəz kimi fəaliyyət göstərir.
Heydər Əliyev Sarayı Bakının mədəni həyatını yaxından hiss etmək üçün ideal məkanlardan biridir. Burada keçirilən tədbirlər vasitəsilə şəhərə gələn qonaqlar Azərbaycan musiqisi, incəsənəti və səhnə mədəniyyəti ilə canlı şəkildə tanış olmaq imkanı əldə edirlər. Sarayın şəhərin mərkəzində yerləşməsi isə turistlər üçün onu daha əlçatan edir.

**Bakı şəhəri, Bülbül prospekti, 35**








# AZƏRBAYCAN MİLLİ İNCƏSƏNƏT MUZEYİ

Azərbaycan Milli İncəsənət Muzeyi ölkənin aparıcı mədəniyyət ocaqlarından biridir. Muzeyin tarixi 1920-ci ildə yaradılmış Azərbaycan Dövlət Muzeyinin nəzdində fəaliyyət göstərən təsviri sənət şöbəsi ilə başlanmışdır. 1936-cı ildə həmin şöbənin bazasında Azərbaycan Dövlət İncəsənət Muzeyi təsis edilmişdir.

Muzey Bakının mərkəzində yerləşən iki tarixi memarlıq abidəsində – **"Lev de Burun sarayı"** və **"Mariinski Qadın Gimnaziyası"**nın binalarında fəaliyyət göstərir. XIX əsrin sonlarında inşa olunmuş bu binalar Bakı şəhərinin memarlıq simasının formalaşmasında mühüm rol oynamışdır. 2013-cü ildə hər iki bina müasir üslubda inşa edilmiş şüşə-polad konstruksiyalı keçid vasitəsilə birləşdirilərək vahid muzey kompleksi yaradılmışdır. Yeni mərkəzi korpusda əsasən müasir incəsənət sərgiləri nümayiş etdirilir.

Muzey fondunda **rəngkarlıq, qrafika, heykəltaraşlıq, tikmə sənəti, metal məmulatları, arxeoloji keramika və çini nümunələri** daxil olmaqla **18 mindən çox eksponat** qorunur. **Azərbaycan incəsənətinin** müxtəlif tarixi mərhələlərini əks etdirən əsərlərlə yanaşı, kolleksiyada **Qərbi Avropa, Şərq və rus incəsənətinin** nadir nümunələri də yer alır. Muzeydə **XVI–XIX əsrlərə aid zəngin Qərbi Avropa rəngkarlıq kolleksiyası**, həmçinin **rus avanqard sənətinə** aid əsərlər mövcuddur.

**Bakı şəhəri, Niyazi küçəsi 9/11**





# MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ

Milli Azərbaycan Tarixi Muzeyi 1920-ci ildə yaradılıb və Azərbaycanın ilk xeyriyyəçilərindən olan **Hacı Zeynalabdin Tağıyevin** keçmiş yaşayış binasında yerləşir.

Muzeyin binasının fasadı zərif bəzək elementləri və naxışlarla zənginləşdirilib, interyeri isə dövrün sənətkarlıq ənənələrini əks etdirir. Tağıyevin yaşadığı ev olmaqla yanaşı, Azərbaycan tarixi və mədəniyyəti üçün də böyük bir irs mənbəyidir.

Muzeydə **Azərbaycanın qədim dövrlərdən müasir dövrə qədərki** tarixini əks etdirən **300 mindən çox eksponat** sərgilənir. Muzeyin kolleksiyasında daş dövründən başlayaraq arxeoloji tapıntılar, silahlar, bədii sənət əsərləri, milli geyimlər, etnoqrafik materiallar və qədim əlyazmalar mövcuddur. Muzeydə Azərbaycan xalqının tarixi inkişaf mərhələləri, mədəni irsi və mədəniyyətinin ən önəmli nümunələri nümayiş olunur.

Muzeydə orta əsr Azərbaycan mədəniyyətini və tarixini əks etdirən sənət əsərləri, sikkələr, məişət əşyaları, əlyazmalar və dini məmulatlar da var. Xüsusilə Azərbaycanın zəngin xalçaçılıq sənətinin nümunələri, eləcə də qədim musiqi alətləri və toxuculuq sənəti eksponatları diqqəti cəlb edir. Yeni dövr Azərbaycan tarixinə aid olan bölmələrdə XIX-XX əsrlərə aid sənədlər, fotoşəkillər və Azərbaycan xalqının ictimai-siyasi həyatını əks etdirən materiallar nümayiş olunur. Muzeyin son bölməsində isə müasir Azərbaycanın tarixi və müstəqillik dövrünə aid eksponatlar qorunur.

**Bakı şəhəri, H.Z.Tağıyev küçəsi**





# AZƏRBAYCAN MİLLİ XALÇA MUZEYİ

Azərbaycan Milli Xalça Muzeyi 1967-ci ildə yaradılıb və **xalçaçılıq sənətinə həsr olunmuş dünyada ilk muzey** hesab olunur. Bu sənət UNESCO tərəfindən Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib. 2014-cü ildən etibarən muzey Heydər Əliyev Fondu və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin birgə layihəsi əsasında tikilmiş yeni binada fəaliyyət göstərir.

Muzeyin binası müasir memarlıq üslubunda inşa olunub və bükülmüş xalça formasındadır. Bu unikal tikili **Bakı bulvarı** ərazisində yerləşir və qeyri-adi görünüşü ilə həm şəhər sakinlərinin, həm də turistlərin diqqətini cəlb edir. Binanın memarı avstriyalı **Franz Yanzdır.**

Muzeyin kolleksiyasında **10 mindən çox eksponat** saxlanılır. Buraya xovlu və xovsuz xalçalar, xalça məmulatları, bədii metal nümunələri, keramika, şüşə, ağac və kağızdan hazırlanmış əşyalar, tekstil və tikmə nümunələri, həmçinin zərgərlik məmulatları daxildir. Bu eksponatlar Tunc dövründən müasir dövrə qədər olan zaman aralığını əhatə edir və əsasən XVII–XX əsrlərə aiddir.

Muzey uşaqlar və yeniyetmələr üçün müxtəlif ustad dərsləri və dərnəklər təşkil edir. Bu fəaliyyətlər vasitəsilə onlar xalça toxuma üsullarını, naxışların mənasını və xalça kompozisiyasının quruluşunu öyrənirlər.

Bundan əlavə, muzey görmə, eşitmə və hərəkət məhdudiyyətli insanlar üçün xüsusi inklüziv proqramlar da həyata keçirir.

**Bakı şəhəri, Mikayıl Hüseynov prospekti, 28**





# NİZAMİ GƏNCƏVİ ADINA MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

Nizami Gəncəvinin adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi 1939-cu ildə yaradılmışdır. Muzey 1945-ci ildə geniş ictimaiyyət üçün açılmış, 2009-cu ildə isə bina əsaslı şəkildə yenidən təmir olunmuşdur.

Muzeyin ekspozisiyası **Azərbaycan ədəbiyyatının** qədim dövrlərdən müasir dövrə qədər olan inkişaf mərhələləri haqqında məlumat verir. Burada görkəmli yazıçıların əlyazmaları, məşhur xəttatların kalliqrafiya nümunələri, klassik ədəbi əsərlərə çəkilmiş miniatürlər, Azərbaycan müəlliflərinin əsərləri, sənədli fotoşəkillər, xalq yaradıcılığı nümunələri, müxtəlif tarixi dövrlərə aid sikkələr, qədim xalçalar, keramika və tunc qablar, eləcə də maddi mədəniyyətin digər nümunələri nümayiş olunur.



**Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 53**



# MUZEY MƏRKƏZİ

Muzey Mərkəzi Bakıda yerləşən mühüm mədəni və sərgi komplekslərindən biridir. Bina 1961-ci ildə inşa edilmişdir.

Bu mərkəzdə müxtəlif muzeylər və sərgi zalları, incəsənət qalereyaları, həmçinin konfrans və tədbir zalları fəaliyyət göstərir. Burada milli tarix, incəsənət və müasir mədəniyyət nümunələrini əks etdirən sərgilər, eləcə də beynəlxalq layihələr, təqdimatlar və elmi tədbirlər təşkil olunur.

Muzey Mərkəzi, eyni zamanda konsertlər, yaradıcılıq gecələri, kitab təqdimatları və digər mədəni proqramların keçirildiyi çoxfunksiyalı mədəni məkan kimi də tanınır. Mərkəz paytaxtın mədəni həyatında mühüm rol oynayır və həm yerli sakinlərin, həm də turistlərin maraq göstərdiyi məkanlardan biridir.

Muzey Mərkəzinin tərkibində bir neçə muzey fəaliyyət göstərir. Bunlara **Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi**, Cəfər Cabbarlı adına **Azərbaycan Dövlət Teatr Muzeyi**, **Azərbaycan İstiqlal Muzeyi**, eləcə də Muzey Mərkəzinin Sərgi Qalereyası daxildir.

**Bakı şəhəri, Neftçilər prospekti, 49**



# AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİ DÖVLƏT MUZEYİ

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi 1967-ci ildə yaradılmışdır. Muzeyin əsas məqsədi Azərbaycan musiqi tarixini əks etdirən materialların toplanması, qorunması, tədqiqi və təbliğidir.

Muzeyin fondlarında **63 mindən çox eksponat** saxlanılır. Buraya tar, kamança, saz, qaval, qoşa nağara, zurna və ney kimi **milli musiqi alətləri**, eləcə də asa-tar və asa-saz kimi nadir alətlər daxildir. Muzeydə həmçinin orta əsrlərdə geniş istifadə olunmuş və sonradan bərpa edilərək yenidən musiqi dövriyyəsinə qaytarılmış Şərq musiqi alətləri də nümayiş etdirilir. Dünyanın müxtəlif xalqlarına aid musiqi alətləri xüsusi kolleksiyada təqdim olunur.

Muzeydə muğam və aşıq sənətinin görkəmli ifaçılarına məxsus not əlyazmaları, məktublar, şəxsi əşyalar, afişalar, proqramlar, fotoşəkillər, təsviri incəsənət nümunələri, kitablar və digər materiallar qorunur.

Burada, həmçinin milli professional bəstəkarlıq məktəbinin tanınmış nümayəndələri — **Üzeyir Hacıbəyli**, **Qara Qarayev** və **Fikrət Əmirov**, eləcə də Azərbaycan vokal məktəbinin banisi **Bülbül**, görkəmli müğənni **Şövkət Məmmədova** və ilk azərbaycanlı balerina **Qəmər Almaszadəyə** aid materiallar

**Bakı şəhəri, Neftçilər prospekti, 49, Muzey Mərkəzinin binası**





# AZƏRBAYCAN İSTİQLAL MUZEYİ

Azərbaycan İstiqlal Muzeyi 1919-cu ildə Parlament binasında ictimai əsaslarla yaradılmış ilk dövlət muzeyidir. 1991-ci ildə isə bu muzey əvvəlki İstiqlal Muzeyinin mədəni varisi kimi yenidən fəaliyyətə başlamışdır.

Muzey Azərbaycanın dövlətçilik tarixini əks etdirən siyasi-tarixi muzeydir və burada **22 mindən çox eksponat** qorunur. Muzeyin ekspozisiyası altı zaldan ibarətdir.

Bu zallarda Azərbaycan Respublikasının dövlət rəmzləri, xanlıqlar dövrünə aid materiallar, XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali və Cənubi Azərbaycanda baş verən hadisələr, repressiya illəri və İkinci Dünya müharibəsi, Qarabağ müharibəsi, 20 Yanvar faciəsi, eləcə də Azərbaycanın müstəqillik dövrü ilə bağlı eksponatlar nümayiş etdirilir.

**Bakı şəhəri, Neftçilər prospekti, 49, Muzey Mərkəzinin binası**



# CƏFƏR CABBARLI ADINA AZƏRBAYCAN DÖVLƏT TEATR MUZEYİ

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi 1934-cü ildə yaradılmışdır. Muzeyin fondlarında **140 mindən çox eksponat** saxlanılır.

Burada Azərbaycanda peşəkar teatrın yaranmasından bu günə qədər müxtəlif janrlarda səhnələşdirilmiş tamaşaların proqram və afişaları qorunur. Eyni zamanda muzeydə əlyazmalar, aktyorların rol dəftərləri, rejissor qeydləri, xatirə əşyaları, müxtəlif tamaşalara aid fotoşəkillər və neqativlər təqdim olunur.

Muzeyin kolleksiyasında səhnə quruluşları üçün hazırlanmış dekorasiya və kostyum eskizləri, səhnə maketləri, teatr obrazları üçün tikilmiş geyimlər və müxtəlif səhnə rekvizitləri də mühüm yer tutur.



**Bakı şəhəri, Neftçilər prospekti, 49, Muzey Mərkəzinin binası**





# AZƏRBAYCAN DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRI

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı ölkənin əsas mədəniyyət mərkəzlərindən biri kimi və milli, klassik opera və balet sənətinin inkişafında mühüm rol oynayır.

Teatr binası 1910-cu ildə inşa edilmişdir. Azərbaycan **Şərqdə opera janrının yarandığı ilk ölkədir**. Hazırda 116-cı mövsümünü yaşayan Opera və Balet Teatrının repertuarı zəngin və rəngarəngdir — burada 40-a yaxın milli və klassik opera, həmçinin 35-dən çox balet tamaşası səhnələşdirilir.

Hazırda teatr binasında genişmiqyaslı təmir işləri aparılır. Bu səbəbdən tamaşalar Heydər Əliyev Sarayında, eləcə də Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Opera Studiyasında təqdim olunur.



**Bakı şəhəri, Nizami küçəsi, 95**





# MÜSLÜM MAQOMAYEV ADINA AZƏRBAYCAN DÖVLƏT AKADEMİK FİLARMONİYASI

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının binası 1910–1912-ci illərdə "İctimai yığıncaqlar üçün Yay klubu" kimi inşa edilmişdir. 1920-ci ildən etibarən bu binada müxtəlif musiqi kollektivləri, orkestr və musiqisevərlər toplaşmağa başlamışdırlar. 25 may 1936-cı ildə isə Filarmoniya Azərbaycanda rəsmi fəaliyyətə başlamışdır.

Azərbaycan Dövlət Akademik Filarmoniyası klassik musiqinin təbliği və inkişafında mühüm rol oynayır. Filarmoniya öz kollektivləri ilə yanaşı, mütəmadi olaraq müxtəlif ölkələrdən tanınmış solistlərin iştirakı ilə konsert proqramları təşkil edir.



**Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 10**





# BEYNƏLXALQ MUĞAM MƏRKƏZİ

Beynəlxalq Muğam Mərkəzi milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin təbliği məqsədilə həyata keçirilən layihələr çərçivəsində 2005-ci ildə Bakıda yaradılmışdır. Mərkəzin əsas məqsədi Azərbaycan muğamını dünyada geniş şəkildə tanıtmaqdır.

Mərkəzin binası özünəməxsus memarlıq üslubu ilə seçilir. Onun layihəsi Azərbaycan musiqisinin ən qədim alətlərindən biri olan tar formasından ilhamlanaraq hazırlanmışdır. Müasir memarlıq elementlərinin milli motivlərlə vəhdəti binaya xüsusi gözəllik və unikallıq verir. Buna görə də Beynəlxalq Muğam Mərkəzi təkcə musiqi məkanı kimi deyil, həm də Bakının müasir memarlıq nümunələrindən biri kimi tanınır.

Hazırda mərkəzdə iki yaradıcılıq kollektivi fəaliyyət göstərir. Burada tanınmış muğam ustalarının konsertləri, muğam gecələri, beynəlxalq konfranslar və müxtəlif festivallar təşkil olunur.

**Bakı şəhəri, Neftçilər prospekti, 9**






# RƏŞİD BEHBUDOV ADINA AZƏRBAYCAN DÖVLƏT MAHNI TEATRI

Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrı 1968-ci ildə **Rəşid Behbudovun** təşəbbüsü ilə yaradılmış və qısa müddətdə Azərbaycan musiqisinin təbliği üçün mühüm səhnələrdən birinə çevrilmişdir. Yarandığı gündən etibarən milli musiqinin inkişafına və Azərbaycan mahnı sənətinin geniş auditoriyaya təqdim olunmasına xidmət edir.

Teatrın binası Bakının mərkəzi hissəsində yerləşir. Burada keçirilən konsertlər, musiqili proqramlar və müxtəlif tədbirlər paytaxtın mədəni həyatına özünəməxsus rəng qatır.



**Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 12**






# AZƏRBAYCAN DÖVLƏT AKADEMİK MUSİQİLİ TEATRI

Azərbaycan milli musiqili komediya janrı XX əsrin əvvəllərində yaranmışdır. Opera Azərbaycan milli musiqili komediya janrı XX əsrin əvvəllərində yaranmışdır. Opera janrında olduğu kimi, bu janrın da banisi **Üzeyir Hacıbəyli** olmuşdur.

Onun 1909-cu ildə yazdığı "Ər və arvad" musiqili komediyası ilk dəfə 24 may 1910-cu ildə Bakıda Nikitin qardaşlarının sirk binasında səhnələşdirilmişdir. Məhz bu tamaşa ilə Azərbaycan Musiqili Komediya Teatrının əsası qoyulmuşdur.

Bu gün teatrın repertuarında təxminən 50 tamaşa yer alır. Böyük bəstəkar Üzeyir Hacıbəylinin "Ər və arvad" operettasının səhnələşdirilməsi ilə 1910-cu ildə əsası qoyulan və zəngin yaradıcılıq yolu keçən Azərbaycan Dövlət Akademik Musiqili Teatrı fəaliyyətini Bakıda 1883-cü ildə görkəmli xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü ilə tikilmiş ilk teatr binasında davam etdirir. Binanın layihələndirilməsi və tikintisinə mühəndis-memar Lemkul rəhbərlik etmişdir.

1922–1960-cı illərdə bu binada Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı fəaliyyət göstərmişdir. 1988-ci ildə bina qəzalı vəziyyətdə olduğu üçün sökülmüş və yerində yeni bina tikilməyə başlanmışdır. Yeni binanın tikintisinin başa çatdırılmasına xüsusi diqqət yetirən Ümummilli Lider Heydər Əliyev 10 oktyabr 1998-ci ildə keçirilən açılış mərasimində də iştirak etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 noyabr 2010-cu il tarixli sərəncamına əsasən teatr əsaslı təmir və bərpa olunmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 oktyabr 2013-cü il tarixli 287 nömrəli Qərarı ilə teatrın adını Azərbaycan Dövlət Musiqili Teatrı olaraq dəyişdirilmişdir. Daha sonra 5 mart 2019-cu il tarixli Sərəncamla teatr sənətinə dövlət dəstəyinin gücləndirilməsi məqsədilə teatra "Akademik" statusu verilmişdir.

**Bakı şəhəri, Şəmsi Bədəlbəyli küçəsi, 98**





# AZƏRBAYCAN DÖVLƏT AKADEMİK MİLLİ DRAM TEATRI

10 mart 1873-cü ildə Bakı realnı məktəbinin şagirdlərinin iştirakı ilə **M.F.Axundzadənin** "Lənkəran xanının vəziri" komediyası əsasında hazırlanan tamaşanın səhnələşdirilməsi ilə peşəkar milli teatrın əsası qoyulmuşdur. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının tarixi ümumilikdə Azərbaycan teatrının tarixi ilə sıx bağlıdır.

Teatrın hazırkı binasının tikintisinə 27 avqust 1954-cü ildə başlanmış və altı ildən sonra tamamlanaraq istifadəyə verilmişdir.

Bakının mərkəzi hissəsində yerləşən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı bu gün də ölkənin ən mühüm mədəniyyət ocaqlarından biri kimi fəaliyyət göstərir və həm yerli tamaşaçılar, həm də turistlər üçün cəlbedici mədəni məkan hesab olunur.hesab olunur.

**Bakı şəhəri, Füzuli meydanı, 1**








# AZƏRBAYCAN DÖVLƏT MİLLİ GƏNC TAMAŞAÇILAR TEATRI

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı 1928-ci ildə həvəskar uşaq dram dərnəkləri əsasında yaradılmışdır.

Fəaliyyət göstərdiyi 98 il ərzində teatr uşaqlara və yeniyetmələrə mənəvi dəyərlər, xeyirxahlıq və vətənpərvərlik ruhunda tərbiyə verilməsində mühüm rol oynamışdır.



**Bakı şəhəri, Nizami küçəsi, 72**





# AZƏRBAYCAN DÖVLƏT PANTOMİM TEATRI

Azərbaycan Dövlət Pantomim Teatrı Azərbaycan teatr tarixində ilk pantomim teatrıdır. Bu teatr növünün əsas üstünlüklərindən biri onun universal dilə malik olmasıdır, yəni tamaşalar heç bir dil maneəsi olmadan izləyicilər tərəfindən başa düşülür.

Azərbaycanda pantomim teatrının banisi **Bəxtiyar Xanızadədir**. Fəaliyyət göstərdiyi 33 il ərzində Azərbaycan Dövlət Pantomim Teatrında 64 tamaşa səhnələşdirilmişdir.



**Bakı şəhəri, Neftçilər prospekti, 26**





# AZƏRBAYCAN DÖVLƏT YUĞ TEATRI

Yuğ Teatrı 18 oktyabr 1989-cu ildə yaradılmışdır. Yarandığı gündən etibarən teatrda 150-dən çox tamaşa səhnələşdirilmişdir.

Teatr illər ərzində həm klassik şair və yazıçıların, həm də müasir Azərbaycan müəlliflərinin əsərləri əsasında müxtəlif tamaşalar hazırlamışdır.

Yuğ Dövlət Teatrı bir çox beynəlxalq və respublika festivallarında uğurla iştirak etmişdir. "Psixosof" teatr poetikası əsasında fəaliyyət göstərən teatr mütəmadi olaraq müxtəlif yaradıcılıq layihələrində də yer alır. etmişdir. "Psixosof" teatr poetikası əsasında fəaliyyət göstərən teatr mütəmadi olaraq müxtəlif yaradıcılıq layihələrində də yer alır.

**Bakı şəhəri, Neftçilər prospekti, 26**



# AZƏRBAYCAN DÖVLƏT KUKLA TEATRI

Peşəkar kukla teatrının tarixi 1931-ci il ilə bağlıdır. Teatr öz ilk tamaşasını — "Sirk" adlı səhnə əsərini 1932-ci ilin aprel ayında təqdim etmişdir.

Teatrın yerləşdiyi bina 1910-cu ilin iyun ayında istifadəyə verilmiş və "Fenomen" adlı kinoteatr kimi fəaliyyət göstərmişdir. Bu bina Bakıda inşa olunmuş ilk kinoteatr binalarından biri hesab olunur. Tikili polyak memar **Yuzef Ploşkonun** layihəsi əsasında Renessans üslubunda inşa edilmişdir.

Hazırda teatrın repertuarında 46 tamaşa mövcuddur ki, onlardan 4-ü böyüklər üçün nəzərdə tutulmuşdur. Tamaşalar hər həftə cümə, şənbə və bazar günləri nümayiş olunur.

**Bakı şəhəri, Neftçilər prospekti, 36**







# NİZAMİ KİNO MƏRKƏZİ

Nizami Kino Mərkəzi Bakının ən tanınmış kinokomplekslərindən biridir. Mərkəz görkəmli Azərbaycan şairi Nizami Gəncəvinin adını daşıyır. Bina 1934-cü ildə memarlar **Sadıq Dadaşov və Mikayıl Useynovun** layihəsi əsasında inşa edilmişdir.

Nizami Kino Mərkəzində həm yerli, həm də xarici filmlər nümayiş olunur. Bundan əlavə, burada müxtəlif film festivalları, təqdimatlar, mədəni tədbirlər və kino ilə bağlı xüsusi layihələr təşkil edilir.

Şəhərin mərkəzində yerləşən bu kinokompleks həm yerli sakinlər, həm də turistlər üçün rahat və cəlbedici istirahət məkanıdır. Müasir interyeri və zəngin film proqramı ilə Nizami Kino Mərkəzi Bakının kino mədəniyyətinin mühüm hissəsi hesab olunur.



**Bakı şəhəri, Bülbül prospekti, 20**





# AZƏRBAYCAN MİLLİ KİTABXANASI

Kitabxananın rəsmi açılışı 23 may 1923-cü ildə baş tutmuşdur. 1939-cu ildə isə kitabxanaya görkəmli mütəfəkkir, dramaturq və maarifçi
adı verilmişdir.

Zəngin fonda Azərbaycan kitab mədəniyyətinin ən qədim nümunələri, litoqrafiya üsulu ilə çap olunmuş əsərlər, ilk çap kitabları və XIX əsrə aid dövri nəşrlər daxildir. **Nadir Kitablar və Kitabxana Muzeyi** şöbəsində 20-yə yaxın dildə nəşr olunmuş ən qədim kitablar, müxtəlif elm sahələrinə aid fundamental tədqiqat əsərləri, qiymətli plakat və xəritə kolleksiyaları, eləcə də ensiklopedik və məlumat ədəbiyyatı qorunur.

Kitabxanada Azərbaycan dilində nəşrlərlə yanaşı, müxtəlif xarici dillərdə çap olunmuş zəngin ədəbiyyat fondu da mövcuddur.

Kitabxanada, habelə klassik Azərbaycan bəstəkarlarının not əlyazmaları mühafizə olunur.



**Bakı şəhəri, Xaqani küçəsi, 29**





# “İÇƏRİŞƏHƏR” DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU

“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu Bakının ən qədim hissəsi və Azərbaycanın ən mühüm tarixi abidələr komplekslərindən biridir. Bu ərazi orta əsr memarlıq nümunələrini, qədim küçələri və tarixi binaları qoruyub saxlayan unikal məkan kimi tanınır. Əsrlər boyu İçərişəhər Bakının siyasi, iqtisadi və mədəni mərkəzi olmuşdur.

Qoruq ərazisində yerləşən tikililərin əksəriyyəti XII—XIX əsrlərə aiddir. Burada Qız qalası, Şirvanşahlar sarayı kompleksi, qədim məscidlər, karvansaralar, hamamlar və yaşayış evləri kimi tarixi abidələr yerləşir. Bu abidələr Azərbaycanın zəngin tarixini və memarlıq ənənələrini əks etdirir.

2000-ci ildə İçərişəhər “Şirvanşahlar sarayı və Qız qalası ilə birlikdə Bakı şəhərinin qala divarları içindəki hissəsi” adı ilə **UNESCO-nun Dünya İrsi Siyahısına** daxil edilmişdir.

Bu gün İçərişəhər həm tarixi irsin qorunduğu bir məkan, həm də turistlərin ən çox ziyarət etdiyi yerlərdən biri kimi tanınır.



**Bakı şəhəri, Səbail rayonu, İçərişəhər**





# QOBUSTAN MİLLİ TARİX-BƏDİİ QORUĞU

Qobustan Milli Tarixi-Bədii Qoruğu Azərbaycanın ən qədim və mühüm tarixi abidələr komplekslərindən biridir. Qoruq əsasən qədim qayaüstü rəsmləri — petroqlifləri ilə məşhurdur və erkən insanların həyat tərzini, inanclarını və gündəlik fəaliyyətlərini əks etdirən unikal mədəni irs nümunəsi hesab olunur.

Qoruq ərazisində minlərlə qayaüstü təsvir aşkar edilmişdir. Bu rəsmlərdə əsasən ov səhnələri, rəqs və mərasimlər, heyvan fiqurları, eləcə də gündəlik həyat səhnələri əks olunmuşdur. Tədqiqatçılar müəyyən etmişlər ki, bu təsvirlərin bəziləri **təxminən 5 min ildən 20 min ilə qədər** qədim tarixə malikdir.

Qayaüstü rəsmlərlə yanaşı, Qobustan ərazisində qədim yaşayış məskənləri, mağaralar, daş alətlər və müxtəlif arxeoloji tapıntılar da aşkar edilmişdir. Bu tapıntılar qədim insanların burada uzun müddət yaşadığını və zəngin mədəni həyatın mövcud olduğunu göstərir.

2007-ci ildə Qobustan Milli Tarixi-Bədii Qoruğu **"Qobustan qayaüstü incəsənət mədəni landşaftı"** adı ilə **UNESCO-nun Dünya İrsi Siyahısına** daxil edilmişdir.

**Bakı şəhəri, Qaradağ rayonu, Qobustan qəsəbəsi yaxınlığı**





# “ATƏŞGAH MƏBƏDİ” DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU

**“Atəşgah məbədi” Dövlət Tarix-Memarlıq Qoruğu** Bakının Suraxanı qəsəbəsində yerləşən qədim od məbədidir. Məbəd XVII–XVIII əsrlərdə inşa edilmişdir. Onun yerləşdiyi ərazi qədim dövrlərdən müqəddəs sayılmışdır, çünki yeraltından çıxan təbii qaz səbəbindən burada alov daim yanırdı.

Məbəd beşbucaqlı qala formasında tikilmişdir və mərkəzində alovun yandığı ibadətgah yerləşir.

Bu gün Atəşgah muzey-qoruq kimi fəaliyyət göstərir və Azərbaycanın **“Odlar Yurdu”** kimi tanınmasının əsas simvollarından biri hesab olunur. Hazırda Atəşgah məbədi tarixi-memarlıq qoruğu və muzey kimi fəaliyyət göstərir. Buraya gələn ziyarətçilər regionun zəngin mədəni irsi ilə yaxından tanış ola bilirlər.



**Bakı şəhəri, Suraxanı rayonu, Suraxanı qəsəbəsi**





# “YANARDAĞ” DÖVLƏT TARİX-MƏDƏNİYYƏT VƏ TƏBİƏT QORUĞU

“Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu Abşeron yarımadasında yerləşən unikal təbiət abidəsidir. Burada yerin altından çıxan təbii qaz səbəbindən təpənin yamacında alov daim yanır. Bu alov yağış və küləkdən asılı olmayaraq sönmür və əsrlərdir davam edir.

Qoruq ərazisində ziyarətçilər üçün muzey binası, sərgi zalları və müxtəlif məlumat bölmələri yaradılmışdır. Burada Azərbaycanın təbii qaz ehtiyatları, Abşeron yarımadasının geoloji xüsusiyyətləri və regionun qədim tarixi haqqında məlumat verilir.

Bu gün “Yanardağ” Bakının ən məşhur turizm məkanlarından biri hesab olunur. Ziyarətçilər burada daim yanan təbii alovu yaxından izləyə və Azərbaycanın unikal təbiət hadisələrindən biri ilə tanış ola bilirlər.

**Bakı şəhəri, Binəqədi rayonu**







# 18 MAY –
# BEYNƏLXALQ MUZEYLƏR GÜNÜ

Hər il mayın 18-i tarixində dünyada Beynəlxalq Muzeylər Günü qeyd olunur. Bu təşəbbüs 1977-ci ildə Beynəlxalq Muzeylər Şurası (ICOM) tərəfindən təsis edilmişdir. Bu gün muzeylərin mədəni mübadilə, təhsil və bəşəriyyətin ümumi irsinin qorunmasında oynadığı mühüm rolu vurğulayır.

Sürətlə dəyişən dünyada muzeylər getdikcə daha çox mədəniyyətlərarası dialoq və inklüziv şəhər mədəniyyəti üçün platformaya çevrilir, müxtəlif mənşəli insanları və icmaları bir araya gətirir.

Beynəlxalq Muzeylər Günü muzeylər üçün öz icmaları ilə daha yaxından əlaqə qurmaq, mədəniyyətlərarası dialoqu təşviq etmək və mədəni institutların davamlı inkişaf və sosial həmrəyliyə verdiyi töhfəni nümayiş etdirmək imkanı yaradır. Dünyanın 150-dən çox ölkəsində minlərlə muzey bu gün münasibətilə sərgilər, tədris proqramları və xüsusi tədbirlər təşkil edir.

Azərbaycan zəngin və müxtəlif muzey şəbəkəsinə malikdir və bu, ölkənin sivilizasiyaların kəsişməsində yerləşməsini əks etdirir. Bakı və digər bölgələrdə ziyarətçilər incəsənət, tarix, ədəbiyyat və mədəni irsə həsr olunmuş muzeylərlə tanış ola bilərlər. **Dünya Şəhərsalma Forumu 13**-ün iştirakçılarına Bakıda olduqları müddətdə Azərbaycanın muzey və mədəniyyət müəssisələrini ziyarət etmək tövsiyə olunur. Bu məkanlara səfər etmək ölkənin zəngin mədəni ənənələrini, yaradıcılıq potensialını və tarixi irsini yaxından tanımaq imkanı yaradır.

Beynəlxalq Muzeylər Günü münasibətilə bir çox muzeylərdə xüsusi sərgilər, ekskursiyalar və mədəni proqramlar təşkil olunur. Həmçinin ölkəmizdə fəaliyyət göstərən bütün muzeylərdə **"Açıq qapı günü"** keçirilir. Bu gün ziyarətçilər muzeylərə ödənişsiz daxil olaraq zəngin ekspozisiyalarla tanış ola, tarixi eksponatları yaxından izləyə və müxtəlif maarifləndirici proqramlarda iştirak edə bilərlər.



# **13-cü Ümumdünya Şəhər Forumu (WUF13)** günləri ərzində Bakıda keçirilən mədəni tədbirlərin siyahısı



# Tamaşa




**Ü.Hacıbəyli**
"O olmasın, bu olsun" operettası" (Dil:Aze)

May 16 | 19:00

Azərbaycan Dövlət Akademik Musiqili Teatrı




**Füzuli**
"Leyli və Məcnun" (Dil:Aze)

May 16 | 19:00

Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrı




**Anar**
"Asılqan" (Dil:Aze)

May 16 | 19:00

Azərbaycan Dövlət Yuğ Teatrı




**Anar**
"Dantenin yubileyi" (Dil:Aze)

May 16 | 19:00

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı




**Ch.Aitmatov**
"Mangurt" (Lang:Aze)

May 16 | 18:00

Azerbaijan State Pantomime Theatre




**İ.Fəhmi**
"Şah Abbas" performansı (Dil:Aze)

May 17 | 19:00

Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrı



# Tamaşa




**İ.Fəhmi**
"Mənəm mən" (Dil:Aze)

May 17 | 19:00

Azərbaycan Dövlət Yuğ Teatrı




**Əli Əmirli**
"Mesenat" (Dil:Aze)

May 17 | 19:00

Azərbaycan Dövlət Akademik Musiqili Teatrı




**C.Cabbarlı**
"Aydın" (Dil:Aze)

May 17 | 19:00

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı




**M.Ələkbərzadə**
"İblis və..." (Dil:Aze)

May 18 | 19:00

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı




**Ü.Hacıbəyli**
"Arşın mal alan" (Dil:Aze)

May 18 | 19:00

Azərbaycan Dövlət Akademik Musiqili Teatrı




**H.Cavid**
"İblis" (Dil:Aze)

May 18 | 19:00

Azərbaycan Dövlət Pantomim Teatrı



# Tamaşa




**Ü.Hacıbəyli**
"Leyli və Məcnun" (Dil:Aze)

May 19 | 19:00

Heydər Əliyev Sarayı




**C.Məmmədquluzadə**
"Anamın kitabı" (Dil:İng)

May 19 | 19:00

Azərbaycan Dövlət Akademik Musiqili Teatrı




"Qurd Əfsanəsi" mono tamaşa (Dil:Aze)

May 19 | 19:00

Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrı




**Ş.Xeyrulla**
"Arqon" (Dil:Aze)

May 19 | 19:00

Azərbaycan Dövlət Yuğ Teatrı



**N.Qoqol**
"Dəlinin qeydləri" (Dil:Aze)

May 20 | 19:00

Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrı




**Toyğun Orbay**
"21:15 Qatarı" (Dil:Aze)

May 21 | 19:00

Azərbaycan Dövlət Yuğ Teatrı



# Tamaşa




**Victor Hugo**
"Paris Notr-Dama ithaf" (Dil:Aze)

May 21 | 19:00
Azərbaycan Dövlət Akademik Musiqili Teatrı




**Eduardo de Filippo**
"Filumena Marturano" (Dil:Aze)

May 22 | 19:00
Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı




**T. Vəliyeva**
"Cəza" (Dil:Aze)

May 22 | 19:00
Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrı

# Konsert




Piano axşamı və şam işığında konsert - Tofiq Şıxıyev

May 16 | 19:00
Kamera və organ musiqisi zalı




F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının konserti

May 18 | 18:00
M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası

# Konsert




Dünya Kino Musiqisi Dövlət Mahnı Teatrının Estrada-Simfonik Orkestrinin ifasında (teatral quruluşda)

May 18 | 19:00

R.Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrı




Muğam axşamı

May 19 | 19:00

Beynəlxalq Muğam Mərkəzi




"Muzeydə musiqi" layihəsi çərçivəsində "Meridians III" adlı konsert proqramı

May 20 | 15:00

Azərbaycan Milli İncəsənət Muzeyi





# Konsert




## Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri

May 20 | 19:00

M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası




## Azərbaycan Dövlət Xor Kapellasının Konserti

May 21 | 19:00

M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası




## Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestrinin konserti

May 21 | 19:00

Beynəlxalq Muğam Mərkəzi



# Konsert




Azərbaycan estrada mahnıları Dövlət Mahnı Teatrının Estrada-Simfonik Orkestrinin ifasında. (Vokal ifaçıları ilə)

May 21 | 19:00

R.Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrı




Qara Qarayev adına Məktəbin şagirdlərinin Konsert Proqramı

May 21 | 19:00

Azərbaycan Dövlət Akademik Musiqili Teatrı




Lara Martin's Jazz Club

May 22 | 19:00

Azərbaycan Dövlət Akademik Musiqili Teatrı

# Film

Nizami Kino Mərkəzi

May 17-22










"BAKI BU GÜN" (DİL: AZE, RU ALT)

12:00, 16:00, 20:00

BAKI BALKONLARI (DİL: AZE, ENG ALT)

12:00, 16:00, 20:00

YARADANLAR (DİL: AZE, ENG ALT)

12:00, 16:00, 20:00

# Ustad dərsləri




"Uşaqlar üçün incəsənət tarixi" layihəsi çərçivəsində **"Minilliklərdən gələn Azərbaycan incəsənəti"** proqramı (Dil:Aze, İng)

May 17 | 11:00-13:00

Az rbaycan Milli İnc s n t Muzeyi




**Ustad dərsləri**
Azərbaycan Milli Xalça Muzeyində xalçatoxuma üzrə birdəfəlik ustad dərsləri (Dil:Aze, İng)

May 17-22 | 11:00-17:00

Azərbaycan Milli Xalça Muzeyi

# Sərgi

Sərgi
**“Küləklər şəhərinin salnaməsi”**
XIX-XXI əsrlər rəssamlarının əsərlərində Bakı

May 15 | 18:30
Niyazi 9/11

“Şəhərsalma və Memarlıq İli” mövzusunda ənənəvi kitab sərgisinin açılışı və “2026–Şəhərsalma və Memarlıq İli “mövzusunda Elektron kitab sərgisinin təqdimatı (azərbaycan və ingilis dillərində)

May 17
Milli Kitabxana

Sərgi
**“Eskizdən səhnəyə”**

May 17-22 | 10:00-18:00
Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi

Sərgi
**“Dirçələn Qarabağ”**

May 17-22 | 10:00-18:00
Azərbaycan İstiqlal Muzeyi

Rəsm sərgisi
**“Rənglərdə Ucalan Memarlıq”**

May 18-22
Muzey Mərkəzi

Fərdi sərgi
**Rəssam Eldəniz Babayevin “Sənət körpüsü... Azərbaycan–Türkiyə”**

May 19-22 | 19:00
Azerbaijan National Carpet Museum

Foto Sərgisi
**“Şəhərin Nəbzi: İrsdən Gələcəyə”**

May 17-22 | 10:00-18:00
Azərbaycan İstiqlal Muzeyi

Sərgi
**“Bakı memarlığı rəssamların gözü ilə”**

May 17-22 | 18:00
Muzey Mərkəzi

# Tədbirlər

**Orta Əsr Şəhər Memarlığı**
Şəhərsalma və arxeologiya mövzusunda elmi-praktiki seminar.

May 14 | 11:00 – 13:00

Bakı Fotoqrafiya Evi, Böyük Qala küç., 42

**“Zamanla Səyahət” Turu**
Əsas tarixi abidələr üzrə maarifləndirici marşrut.

May 15 | Gün ərzində

İçərişəhər abidələri

**Dialoq: Köhnə məhəllələr və yeni evlər**
Bakı həyətlərinin sosial dayanıqlıq modeli kimi
müzakirəsi.

May 15 | 16:00 – 18:00

Şirvanşahlar Saray Kompleksi

**AVANGART TABLDOT**
(Konsert)

May 16 | 18:00

Baku Bulvarı

**“Xalçalarda memarlıq”**
Sərgi

17-22 May

Azərbaycan Milli Xalça Muzeyi

**"Little Artists"**
Rəsm sərgiləri və heykəltəraşlıq üzrə ustad dərsləri.

May 17 | 11:00 – 18:00

Qız Qalası meydanı

**Yeni parkın açılışı**
Sakinlər üçün yenilənmiş ictimai məkanın təqdimatı.

May 17 | 15:00

M. Maqomayev küç., 107-109

**“Fotoqrafiya gecəsi”**
Açıq havada multimedia sərgisi (yaddaş, şəxsiyyət və mənsubiyyət).

May 17 | 20:30 – 23:00

Qız Qalası və Qoşa Qala meydanı

# Tədbirlər

"Ağqoyunlular və Şah İsmayıl dövründə Diyarbəkirin qala divarları — kitabə və qabartmalar" mövzusunda elmi seminar
(Dil:Aze)

May 18 | 14:00

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi

"Procession - process: peace", $C^2E^2$ Ansamblı Festivalın açılışı

May 18 | 19:00

Beynəlxalq Muğam Mərkəzi

Foto sərgi
**Zamir Süleymanov "Bərk arxiv"**

May 18

Beynəlxalq Muğam Mərkəzi

**"Klassik gitara müasir musiqidə"**
Raul Hüseynov

May 18 | 21:00

Beynəlxalq Muğam Mərkəzi

"Beynəlxalq abidələr və tarixi yerlər. Mədəni irsimiz - milli sərvətimiz" adlı interaktiv-maarifləndirici proqram
(Dil:Aze)

May 19 | 11:00-13:00

Azərbaycan Milli İncəsənət Muzeyi

"Nizami Muzeyinin ekspozisiyasında şəhər mədəniyyətinin əksi" mövzusunda elmi seminar (Dil:Aze)

May 19 | 14:00

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi

"Azərbaycan Dirijorluq Məktəbi" tədbiri
(Dil:Aze)

May 19 | 15:00

Azerbaijan State Museum of Musical Culture

Mühazirə
**Aleksey Potapov, "Yeni musiqidə gitara və elektrogitara: genişləndirilmiş texnikalar"**

May 19 | 12:00

Qara Qarayevin ev muzeyi

# Tədbirlər

Vorkşop
**Aleksey Potapov, "Sərbəst improvizasiya"**

May 19 | 16:00
Qara Qarayevin ev muzeyi

Morton Feldman - 100. Philip Guston

May 19 | 21:00
Muzey Mərkəzi

Mühazirə
**Rachel Walker, "İnterosemiotik tərcümə və transkripsiya musiqi təkanları kimi"**

May 20 | 12:00
Qara Qarayevin ev muzeyi

"Poeziya və memarlıq: Əcəmidən yeni dövrədək" mövzusunda elmi sessiya (Dil:Aze)

May 20 | 14:00
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi

Konsert
**Catinblack ansamblı, Konsertdən sonra ansamblla görüş, müzakirələr və s.**

May 20 | 16:00
Muzey Mərkəzi

Türkər Qasımzadə, Portret - Konsert

May 20 | 19:00
Beynəlxalq Muğam Mərkəzi

"Əcəmi Naxçivani - 900" mövzusunda Biblioqrafiya kitabının təqdimatı (Dil:Aze)

May 20 | 11:00-13:00
Milli Kitabxana

$C^2E^2$ Ansamblı, Bəstəkarlar üçün vorkşop

May 21 | 16:00
Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi

# Tədbirlər

Catinblack ansamblı

May 21 | 19:00

Muzey Mərkəz

“Şəhərsalma və Memarlıq İli” mövzusunda Elektron məlumat bazasının təqdimatı (Dil:Aze)

May 21

Milli Kitabxana

“Muzeydə mühazirə” layihəsi çərçivəsində Abdul Hüseynovun AMİM-nin yerləşdiyi tarixi binalar haqqında mühazirəsi (Dil:Aze)

May 21

Azərbaycan Milli İncəsənət Muzeyi

Cadenza Orkestri

May 22 | 19:00

Beynəlxalq Muğam Mərkəzi

Aleksey Potapov, “Loop Syntax”

May 22 | 21:00

Beynəlxalq Muğam Mərkəzi





Artıq bələdçinin sonuna çatdınız. Ümid edirik ki, təqdim olunan məlumatlar Bakının zəngin mədəni həyatı ilə daha yaxından tanış olmağınıza kömək etdi. Sizə xoş və yadda qalan kəşflər arzulayırıq.



Biletləri Bakıda bilet kassalarından
və onlayn platforma
vasitəsilə almaq mümkündür:

